# Zirvəndə oynaşan ruzigarlar acı...



İlqar MÜZƏFFƏROĞLU

AJB-nin üzvü

***'Ey Azəri türk... Ey vətəndaşım... Sənin qarət olunmuş haqqından doğan daşqınlığına tərcüman olayım deyə hayqıran hıçqırıqlarımdan ibarət boğuq bir səs oldu...***

***Ah... Bu səsdə belə səni, həm sənin eşqini, həsrətini, qəribliyini azacıq da olsa yaşada bildimsə, nə mutlu mana..."***

***Bu, nə səsdir? Nə, fəryaddır? Gündüzləri ailəsi, yurddan didərgin düşmüş həmdərdləri ilə ürəyini onun böyük həsrətlə qol-boyun olduğu bir vaxtda yazdığı vəsiyyətidimi? Axı, iyirmi doqquz yaşda vəsiyyət yazılmaz. İyirmi doqquz yaş adamın (şairin demirəm) həyat eşqi ilə qaynayıb daşdığı bir vaxtdı. Amma...***

30-cu illərdə qırmızı imperiyada tüğyan eləyən repressiya, tut-hatut Almas İldırımı 1925-ci ildə yaxaladı. Üzdə savadsızlığa səlib müharibəsi elan edən ziyalıya ehtiyacı olduğunu bəyan edən, içdəsə işıqlı adamlara "zərərli həşərat" kimi baxan imperiya məmurları 18 yaşlı gənci "Sovet məktəbində tacir balasına yer olmamalıdır" hökmü ilə Universitetin tələbəliyindən axırına kimi A.İldırımın yol yoldaşı oldu.

...Gənc A.İldırımın yazıb-yaratdığı, yaşadığı hər gün əvvəlkindən daha ağır, daha üzüntülü keçirdi.

Yazdığı hər şeirdə ("Neçin", 1927, "Dağlar" 1927) cəmiyyətə yad fikirlər axtarırdı.



**Zirvəndə oynaşan ruzigarlar acı,**
**İllərdir görünməz başının tacı.**
**Anlat ki, dərdinin nədir əlacı,**
**Nədir bu dumandan tüllər, a dağlar?!**

Buradakı "dumandan tüllər" klassik təşbehi ilə şairi ittiham edirdilər. İşıqlı Sovet dövlətinə qara yaxmaqda suçlayırdılar. Kim idi şairi damğalayanlar?

Siyahıya baxaq taleyimizin kimlərin əlində olduğundan ibrət alaq, Azərbaycan Daxili İşlər Komissarlığında o illərdə "meydan sulayanlar": Xoren Qriqoryan (məxfi işlər şöbəsinin müdiri), Aramais Akopyan (ümumi şöbənin müdiri, Edik Martirosyan (kəşfiyyat şöbəsinin müdiri), İvan Xancanyan (əks-kəşfiyyat şöbəsinin müdiri), Xaçik Qriqoryan (istintaq şöbəsinin müdiri), Aşot Arutunyan (xüsusi işlər şöbəsinin müdiri), Kapriyel Ambarsumyan (təsərrüfat işləri şöbəsinin müdiri), Amo Markaryan (Daxili İşlər Komissarının müavini), Sumbatov - Topuridze (DTK sədri), müstəntiqlər Qalstyan, Ohanesyan, Avanesyan, Qriqoryan və digər daşnakların əlindən sağ qurtaran ziyalılara, elə S.Vurğuna, R.Rzaya, M.S.Ordubadiyə baxanda şükür eləməli oluruq. Nə yaxşı işığımızı tamam söndürə bilməyiblər.

A.İldırıma ilk hücum zəhərli kommunistlik ideyası yaydığına görə Türkiyədən qovulub Azərbaycana sığınan Əkrəm cənabdan gəldi: "Almas kimilərin qafaları Sovet çəkici ilə əzilməlidir" (fakt Feyzi Ağüzümün "Almas İldırımın hal tərcüməsi" məqaləsindən götürülmüşdür").

***Proletar Yazıçılar Cəmiyyətinin sədri Mustafa Quliyev qəti 'hökm" verdi: 'Müsavatçılara aşiq və Türkiyə çavuşlarının" həqiqi şagirdi bulunan Almas İldırım kimi qəmli mərsiyə yazanlardan ədəbiyyatımızı təmizləməliyik".***

***Bu göstərişdə A.İldırım Əhməd Cavad və Hüseyn Cavidin yolçusu adlandırılırdı ki, onların da son aqibəti məlumdur. Amma Mustafa Quliyev də başqaları haqqında hökmlər verə-verə, özü qazdığı quyuya düşdü və 1938-ci ildə gedər-gəlməzə göndərildi.***

Qayıdaq hadisələrin gedişatına... 1928-ci ildə 21 yaşlı Alması Dağıstana sürdülər. Orada qaldığı iki ildə çoxlu millətsevərlərlə tanış olan şair Dağıstanın milli həyatından bəhs edən şeirlər yazır. Bu şeirlər əldən-ələ gəzərək müəllifinə böyük hörmət qazandırır. O zaman Azərbaycan Nəşriyyat şöbəsində "Dağlar səslənərkən" adlı kitabda çap edilən bu şeirlər kommunizmə zidd fikirlər daşıdığı üçün kitab vitrinlərindən yığışdırılmış elə beşikdəcə məhv edilmişdir.

"Bu yerdə yazıçı Anarın bir ədəbi məclisdə dediyi başbilənlərimizin iç dünyasını nöqtəsinəcən aydın göstərən bir cümləsini gətirmək istəyirəm:

"Moskvada dırnaqlarını tutanda Bakıdakı işbilənlərimiz barmaqlarımı kəsirlər".

Bu cümlənin birbaşa A.İldırıma heç bir aidiyyəti yoxdu. Amma şairi diyar-diyar"gəzdirənlərin" canfəşanlığını bundan sərrast ifadə etmək də mümkünsüz bir işdir.

Beləcə, Dağıstanda islahı mümkün olmayan 23 yaşlı şairi Türkmənistana sürgün edirlər. Bu sürgün və göz dustaqlıqlarından üzülərək A.İldırım türk dünyasında onu gəzdirənlərə minnətdarlıq edir.

***1928-ci ildə 21 yaşlı Alması Dağıstana sürdülər. Orada qaldığı iki ildə çoxlu millətsevərlərlə tanış olan şair Dağıstanın milli həyatından bəhs edən şeirlər yazır. Bu şeirlər əldən-ələ gəzərək müəllifinə böyük hörmət qazandırır. O zaman Azərbaycan Nəşriyyat şöbəsində "Dağlar səslənərkən" adlı kitabda çap edilən bu şeirlər kommunizmə zidd fikirlər daşıdığı üçün kitab vitrinlərindən yığışdırılmış elə beşikdəcə məhv edilmişdir.***

"Bu şəkildə dolaşmam onlar üçün daha fəna olur. Məni yurdumun hər bucağında gəzdirirlər. Hər tərəfdə yıldızlı (zahiri işıltılı) qızıl zəncilərin səsini duymaqdayam. Millətin boynuna asılan hər zəncir halqası məlum kinimi daha da artırır".

***"Bu şəkildə dolaşmam onlar üçün daha fəna olur. Məni yurdumun hər bucağında gəzdirirlər. Hər tərəfdə yıldızlı (zahiri işıltılı) qızıl zəncilərin səsini duymaqdayam. Millətin boynuna asılan hər zəncir halqası məlum kinimi daha da artırır"***



Aşqabadda türk şagirdlərinin oxuduğu bir məktəbə müdir təyin olunan A.İldırım bir qədər asudə nəfəs alsa da, onu izləyənlər türklük atəşi ilə yoğurulmuş şeirlərini, o şeirlərə bəstələnən musiqiləri həzm edə bilmirlər. Mətbuatda haqqında yazılar verilir. QPU onun Aşqabad həyatının tədqiq etmək üçün Əkbər Ruhi adlı bir kommunisti oraya göndərir. Şairin Aşqabaddakı yaradıcılıq fəaliyyətini araşdıran Ə.Ruhi 10 avqust 1932-ci il tarixli"Zəhmət" qəzetində raport xarakterli yazı ilə çıxış edir:

***"Almas İldırım Azərbaycanda, Dağıstanda göz açmağa qoymadılar. Fəqət burada rahatlıq tapmış, istədiyini yazır. Artıq buna meydan verməyəcəyik. A.İldırım gəncdir. Bizim tərəfimizə keçmək üçün vaxt hənuz müsahiddir. Əgər keçmişindən vaz keçib, sadəcə sözlə deyil, felən də bizimlə bir olursa nə elə, yoxsa bundan sonra ağır zərbələrimizə dayanmalıdır... Almas İldırım ideolojimiz üçün zərərli bir insandır. Bizə inanmaq şərti ilə aramızda qalmaq diləyində isə bu arzusunu mətbuat yolu ilə bildirməlidir".***

A.İldırım arzusunu bildirir, Əkbər Ruhiyə və onun kommunist təfəkkürlü hökumətinə deyil, orada evləndiyi, əsli Şamaxıdan olan, valideynləri ilə Türkmənistana sürgün edilmiş həyat yoldaşıma, həsrət və üzüntülərin içindəki səadətinə - Zivər xanıma:

- Mən ikinci yolu seçirəm. Burada qalıb onlara qulluq eləyə bilmərəm.

Bu sözlərin ağırlığı və məsuliyyətini dərk edən Zivər xanım ərinin - qətiyyəti ilə qürurlanır.

1933-cü ilin iyununda A.İldırım Zivər xanımı və üçaylıq oğlu Azərlə bir qaçaqçı karvanına qoşulur, böyük çətinliklə İrana yetişir.

Sən saydığını say, gör fələk nə sayır. Bir cəllad rejimindən qurtarıb, ondan da betərinə urcah olurlar.

Elə sərhəddəcə baxışlarından yorğunluq tökülən A.İldırımı və Zivər xanımı şübhəli adamlar kimi məntəqəyə, rəisin otağına aparırlar və ona ilk olmayan damğanı vurarlar: "sən casussan". Nəzmiyyə idarəsində onu daha da çox incidirlər. Amma boynuna heç nə qoya bilmirlər.

Bir də, nəyi qoymalıydılar. Nifrət elədiyi ölkənin casusu olduğunumu? Onsuz da ölümü daim özü ilə gəzdirən, əqidəsini heç bir rahatlığa dəyişməyən bir adamı nə ilə sındırmaq olardı?

Üçüncü gün onu bərk döydülər. Sonra isə xüsusi kameraya salaraq boğaza qədər qalxan soyuq suda dayanmağa məcbur etdilər. Nə qədər vaxt keçdiyini bilməyən Almas İldırım bədəninin qıc olduğunu hiss etdi, istər-istəməz xəyalından keçirdi - "Yıxılmaq olmaz, bu məhv olmaq, boğulmaq deməkdir". Divara söykəndi. Lakin bir neçə saatdan sonra tamamilə keyləşmiş bədəni iradəsinə tabe olmadı. O, huşunu itirərək daş kimi suyun dibinə düşdü.

***Bütün tarixlər boyu Azərbaycanın güclənəcəyindən qorxan, 'ağlamaq və gülməyinə də qadağa qoyduğu azərbaycanlıları xof içərisində saxlayan İranın şahlıq rejiminin əlindən xilas olacağına ümidi qalmayan A.İldırım 'Türkiyə, Türkiyə buradan qurtarsam Türkiyəyə keçəcəyini" qəti qərarına gəlir.***

***A.İldırım əqidə adamı idi. Əqidəsindən dönmək onun üçün ölüm deməkdi. Ölmək istəmirdi. Hələ türmədə ikən Türkiyəyə keçmək, az ömründə çox işlər görmüş, 'xalqa azadlığı dadızdırmış ADR-in sağ qalan qurucuları ilə birgə addımlamaq istəyirdi. Qarşıda Türkiyə həyatı dururdu".***